ədalət.- 2023.- 4 mart.- S.8.

Əli ÇƏRKƏZOĞLU

## Başın sağolsun Vətən!

Ya Rəbbi,xeyrə cala kütə mail gümanı,
Rəhmətinin ziyası tərk etməsin səmanı,
Qoyma çırağı keçmiş Bakı Hava Limanı,
Nurundan xali qalsın o İlahi təmasın,
Türk elində nə hilal nə də günəş batmasın.

Bizim ki, dinimiz haqq,Kitabımız Ecazdı,
Fəthə işarə edən Tanrı türkə qıymazdı,
İblisin təkmələri deprem quyusu qazdı,
Dərdimə kafa tutan ahımı unutmasın,
Ovunarıq, yetər ki, zəmin günəş batmasın.

Maraşa havalandı gecəylə neçə uçaq,
Ürəyimiz məşəldi, göydə üz ağardacaq,
Eşq gedə sıcaq-sıcaq,qəm  bölə qucaq-qucaq.
Allah özün səbəb sal, təskinlik xar olmasın,
Seyrək vuran nəbzə də ümid günəş batmasın.

İmanın inamı var bizdə fövqəl qüvvəyə,
İnsan müqaviməti fövqündə faciəyə,
Məmmədin dəstəsi də fövqəladə hal deyə,
Yetdi ki,Mehmetgilin zor yükünə əl atsın,
Enkazın naçarına çarə günəş batmasın.

Qan kokan tüstü boğub Hatayın çöhrəsini,
Kimisi sokak-sokak gəzir öz kimsəsini,
Yer üstdə ölən pusur altdan diri səsini,
Kölgələr də tərpənmir ki, səhv addım atmasın,
Sükutu susdurur ki, gözlə günəş batmasın.

Məhşərvari gecədən ta bu gündüzə qədər,
Hər anına tam ayrı kədər həkk etdi kadər,
Tək məzara çevrildi bütöv bir qədim şəhər,
Varmı bizdən qeyrisi,Haqq bunca sərt sınasın,
Təki türkün səbrinə həyan günəş batmasın.

Mehmetlə Məmməd -qoşa xilasedici mələk,
İsa-Musa quşutək pəs səs-səsə verərək,
Az qalırdı torpağı yeyələr ki, daş-kəsək
altda bəlkə diri var, nicata göz yummasın,
Çox sönənə yetdilər ki,dur, günəş batmasın.

Budur, Rəis də gəldi,gözü qan çəkmiş halda,
Ağlayarmış dünyanı tək yönəldən adam da,
Səsinə səs verməyən olmaz bütün mahalda,
On dörd Mayıs'ta kimsə künc -bucaqda yatmasın,
Turanın başı üstdə Sultan günəş batmasın.

Bu gündən iki dövlət demə gəl şair,qəti,
İlham çəkən yeni sədd ta bölmür tək milləti,
Azərbaycan, Türkiyə vahid Cümhuriyyəti,
Ülküçüyə nə fərqi, paytaxtı hara sansın,
Laməkandı sədası bu milli iltimasın;
Günəşimiz batmasın! Günəşimiz batmasın!